**Söylədiyinə görə, kitaba bağlılıq onda hələ uşaq yaşlarından başlayıb. Böyüdükcə mütaliə onun üçün ayrıla bilmədiyi bir adətə çevrilib.**

**Müşkünaz xanım danışır ki, orta məktəbi bitirəndə bir arzum vardı- dövlət orqanlarında çalışmaq. Elə bu istəklə də sənədlərimi Azərbaycan Dövlət Universitetinin hüquqşünaslıq fakültəsinə verdim.**



# Kitablar arasında keçən ömür

**Ancaq nə yazıq ki, müsabiqədən keçə bilmədim. Yarı könüllü, yarı könülsüz universitetin kitabxanaçılıq fakültəsinə keçdim.**

Arzum ürəyimdə qalmışdı deyə hələ bir həftə dərsə də getmədim. Qismətdən qaçmaq olmazdı. Taleyimlə sonradan barışmalı oldum...

Oxucuları intizarda saxlamaq istəmirik. Həmsöhbətimiz Qubadlı Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Müşkünaz Muradovadır.

Muradova Müşkünaz Rza qızı 1959-cu il iyulun 1-də Qubadlı rayonunun Diləli Müskanlı kəndində anadan olub. ADU-nun (indiki Bakı Dövlət Universiteti) kitabxanaçılıq və biblioqrafiya fakültəsini bitirib.

Əmək fəaliyyətinə 1980-ci ildə Qubadlı Rayon MKS-in direktor müavini kimi başlayıb. 2007-ci ildə yaxşı işi nəzərə alınaraq MKS direktoru təyin olunub.

Söhbət zamanı Müşkünaz xanım fikirlərini bizimlə belə bölüşdü:

- Rayon kitabxanası 1936-cı ildə fəaliyyətə başlayıb. MKS onun bazası əsasında düz 44 il sonra, yəni, 1980-ci ildə yaradılıb. O zaman cəmi 4 şöbəsi (metodika və biblioqrafiya, kitabişləmə və komplektləşdirmə, mübadilə və oxuculara xidmət) olub.

Qubadlının süqutundan əvvəl şəbəkədə 82 kənd kitabxanası birləşib. Burada 129 nəfər kitabxanaçı çalışıb. MKS-in ixtiyarında 24 otaqdan və 1 oxu zalından ibarət ikimərtəbəli binası, 800 min nüsxəlik kitab fondu, 21300 nəfər oxucusu olub.

1993-cü ildən öz fəaliyyətini Sumqayıt şəhərində bərpa edən MKS hər şeyə sıfırdan başlayıb. Çünki riyakar düşmənlərimiz tərəfindən hər şey yandırılıb qarət edildiyindən kollektiv yenidən ədəbiyyat toplamaq qayğısına qalıb. Beləliklə, MKS-in Sumqayıt həyatının ilkin əsası 600 nüsxədən ibarət kitabla qoyulub.

28 May adına Mədəniyyət Evində - 5 otaqda məskunlaşan kitabxanada hazırda 28 nəfər çalışır. Onlardan 5 nəfəri ali təhsillidir.

Möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının 2004-cü il 12 yanvar tarixli sərəncamı ilə kütləvi nəşrlərin latın qrafikası ilə yenidən nəşr olunması barədə verdiyi sərəncamdan sonra kitabxananın fondu günü-gündən zənginləşdirilmişdir. Hədiyyə kitablarının sayı 5 min nüsxə, kitab fondu 25 min nüsxədir. Oxucuların sayı 3 min nəfər, kitab verilişi 30 mindən çox olmuşdur. Məlum səbəblərə görə kənd kitabxana filialları öz fəaliyyətini davam etdirə bilməmiş, hazırda 76 nəfər işçisi orta aylıq əmək haqqı alır.

Respublikamızda gedən bütün ictimai- siyasi proseslərdə və Rayon İcra Hakimiyyətinin tədbirlər planına uyğun olaraq MKS öz işini bu istiqamətdə görmüşdür.

Oxuculara xidmət şöbəsi, kitabişləmə və komplektləşmə şöbəsi öz işlərini günün tələbləri səviyyəsində qurur.

Möhtərəm Prezidentimizin "Azərbaycan Respublikası kitabxana informasiya sahəsinin 2008-2013-cü illərin inkişafı üzrə Dövlət Proqramı"na uyğun işlərimizi davam etdiririk. "Dağıdılmış sərvətlər, məhv olmuş kitabxanalar", "Dirçələn fondlar" başlığı altında guşə yaradılmış, kitabxana fondu daha da aktivləşdirilmişdir.

2010-cu ildə Qubadlı Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Veb-saytı yaradılmış, kitabxana internet şəbəkəsinə qoşulmuşdur. Elektron kataloqunun yaradılması üçün bütün imkanlardan istifadə olunur.

Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru və bir neçə əməkdaşı kompüter biliklərinə yiyələnmək üçün Mədəniyyət İşçilərinin İxtisasartırma kursunda və C.Cabbarlı adına Respublika Gənclər kitabxanasında keçirilən treninqdə iştirak etmişdir.

Kitabxanaya geniş oxucu kütləsini cəlb etmək üçün idarə, müəssisə, təşkilat və özəl qurumlarla, təhsil ocaqları ilə birgə iş aparılmışdır. Daxil olunmuş yeni ədəbiyyatların təbliği üçün müxtəlif kütləvi tədbirlərdən- kitab sərgisi, stend, kitab təqdimatı, ədəbiyyatların tövsiyəsi, məruzə, mühazirələr, ədəbi-bədii gecələr, biblioqrafik icmal və s. keçirilmişdir.

"20 yanvar tariximizin qan yaddaşıdır", "Əsrin faciəsi", "8 Mart-Beynəlxalq Qadınlar günü", "Novruz bayramı", "31 mart Azərbaycanlıların soy qrımı günü", "9 may-qələbə günü", "10 may-Ulu Öndərimizin anadan olduğu gün", "15 iyun-Qurtuluş günü", "31 avqust-Qubadlının işğal günü", "Müqəddəs Qurban bayramı", "31 dekabr-Dünya Azərbaycanlılarının həmrəylik günü" münasibətlə-ri ilə kütləvi tədbirlər keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev cənablarının 2011-ci ili Turizm və Gənclər ili elan etməsi ilə əlaqədar olaraq kitabxanamızda keçirilən tədbirlər bu istiqamətə yönəldilmişdir. Kitabxananın illik planına uyğun olaraq kütləvi tədbirlər müntəzəm şəkildə keçirilmişdir.

Geniş kitab sərgiləri, biblioqrafik icmallar, şair və yazıçıların yaradıcılığına aid ədəbi-bədii gecələr, kitab müzakirələri və s. kütləvi tədbirlər təşkil edilmişdir.

**Kitabxanamızın əməkdaşlarından direktor müavini Sevda İsmayılova, baş redaktor Nüşabə Allahverdiyeva, böyük kitabxanaçı Sevda Əliyeva, metodika şöbəsinin müdiri Zülfiyyə Adıgözəlova, biblioqraflardan Cəmilə Məmmədova və Əzizə Alıyeva işlərinə məsuliyyətlə yanaşır, sənətlərini ürəkdən sevirlər.**

**A. QƏHRƏMANQIZI**

